*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 470-479*

https://doi.org/10.62837/2025.8.470

**UOT 82.91**

*dos.* **MƏMMƏDOVA TÖRƏ KAMAL QIZI**
*fil.f.d.* **ALIYEVA AFIQƏ ALI QIZI**
*fil.f.d.* **CABAROVA MƏDINƏ AĞAKƏRIM QIZI**
*Sumqayıt Dövlət Universiteti*
*madina.cabarova@sdu.edu.az*
*tora.mammadova@sdu.edu.az*

# "MOLLA NƏSRƏDDİN" ƏDƏBİ MƏKTƏBİNİN NÜMAYƏNDƏLƏRİ VƏ ONLARIN FƏALİYYƏTİ

**Xülasə**

1906-cı ilin aprel ayının 7-də Tiflisdə Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin təşəbbüsü ilə fəaliyyətə başlayan "Molla Nəsrəddin" jurnalı ətrafına dövrünün bir sıra qələm ustalarını cəmləşdirdi. Xalqın, millətin gələcəyini düşünən mollanəsrəddinçilər eyni cəbhədə birləşərək cəhalət və geriliyə qarşı mübarizə aparmağa, azadlıq və bərabərlik ideyaları təbliğ etməyə, maarif və təhsilin inkişafına çağırış etməyə başladılar. Onları narahat edən məsələr sırasında milli şüurun formalaşması, ana dilinə münasibət də mühüm yer tuturdu. Digər mətbu orqanlarından fərqli olaraq "Molla Nəsrəddin"in məqsədi insanları gülərək düşündürmək idi. Sadə xalqın nümayəndələrinin belə maraq duya biləcəyi bu jurnalda yazılar olduqca anlaşıqlı dildə verilir, yazı və oxu bacarıqlarının nisbətən məhdud olduğu şəxslər üçün karikatura və illüstrasiyalarla bəzədilirdi. Bu illüstrasiya və karikaturaların müəllifi O.Şmerlinq, İ.Rotter kimi əcnəbi rəssamlar və Azərbaycan karikatura sənətinin banisi Ə.Əzimzadə idi.

**Açar sözlər: "Molla Nəsrəddin", satira, mollanəsrəddinçilər, ədəbi məktəb, tənqid**

Cəlil Məmmədquluzadənin mühərrirlik fəaliyyəti satiranı, yumoru, ümumilikdə tənqidi gülüşü birləşdirir. Onun gülüş vasitəsilə xalqa xitab etməsinin əsas məqsədi qəflətdə yatan xalqı oyatmaq, onları intibaha səsləmək idi. Siyasət və elm aləmində baş verən yeniliklərin yalnız bir qrup ziyalı tərəfindən anlaşılması (dil və üslubun mürəkkəbliyi səbəbindən) sadə xalqın nümayəndələrini bu dövrdə dərc olunan bir sıra qəzet və jurnalların fəaliyyəti ilə maraqlanmaqdan çəkindirirdi. Lakin mollanəsrəddinçilər elə bir ümumi dil tapdılar ki, onun vasitəsilə ən avam və savadsız adamı da siyasi-ictimai həyatda baş verən yeniliklərdən xəbərdar etmək oldu. Bu dil acı, istehzalı gülüşün dili idi. Bu təhsillinin nadana, müəllimin savadsız mollaya, kəndlinin mülkədara, zəhmətkeşin istismarçıya acı gülüşü idi. Bu üsul sadə oxucunu cəlb edir və siyasi-ictimai məsələləri daha anlaşıqlı hala gətirirdi. İlk

nömrəsi 1000 tiraj nüsxə ilə çap olunan jurnal qısa müddətdə populyarlıq qazanaraq növbəti nömrələrdə nüsxə sayını artırdı. Jurnalın fəal üzvləri satirik ədəbiyyatın inkişafında xüsusi xidmətləri olan M.Ə.Sabir, Ö.F.Nemanzadə, Ə.Qəmküsar, Ə.Nəzmi, M.Möcüz, Ə.Haqverdiyev, Ü.Hacıbəyli və b. idi. Onlar hekayə və publisist yazıları, satiraları vasitəsilə cəhalətə, mövhumata, qadın hüquqsuzluğuna, sosial ədalətsizliyə, istismarçı mühitə qarşı eyni cəbhədə birləşərək xalqın maariflənməsi üçün əllərindən gələni etməyə çalışırdılar.

"Mollanəsrəddinçilik – mollanəsrəddinçilərin özünəməxsus yaradıcılığı və bu yaradıcılıqda əks olunan azərbaycançılıqdır". [8, s.15] Azərbaycançılıq ideyası, Azərbaycanın tarixi məmləkət olaraq ərazisi və bütövlüyü haqqında fikirlər C.Məmmədquluzadənin "Azərbaycan" məqaləsində daha qabarıq təsvir olunur. "Tarix" felyetonunda ədib tarixin səhifələrinə göz gəzdirməyi, dostu düşməndən ayırmağı, ötən səhvlərdən özünə nəticə çıxarmağı hər bir azərbaycanlıya tövsiyə edir. Bu məqalə erməni-müsəlman qarşıdurmasını, müsəlmanların bədxah qonşularından qorunmaq üçün ən ağlasığmaz vasitələrə əl atdığını ürək ağrısı ilə təsvir edir: "Erməni-müsəlman davasında Şeytanbazar müsəlmanları "Quran"ın ayələrini kağız üstə yazıb yapışdırmışdılar divarlara ki, evlərinə xətər toxunmasın; amma bu evlərin çoxuna od düşəndə, hər bir şeydən qabaq bu dualar alışıb yandılar; çünki kağız taxtadan və daşdan tez yanar".

"Molla Nəsrəddin"in nasirlərindən biri də "Xortdan", "Mozalan bəy", "Ceyranəli", "Süpürgəsaqqal" imzaları ilə jurnalda silsilə məqalələr çap etdirən Ə.Haqverdiyev idi. Filologiya üzrə elmlər doktoru, professor Allahverdi Məmmədli qeyd edir ki, Əbdürrəhim bəyin hekayələrində, bütövlükdə bədii nəsrində C. Məmmədquluzadənin təsiri hiss olunur. C.Məmmədquluzadə "Xatiratım" adlı əsərində özünü mollanəsrəddinçilərin "ağsaqqal yoldaşı" adlandırırdı. Bu mənəvi yaxınlıq C.Məmmədquluzadə və Ə.Haqverdiyevin əsərlərinin ruhunda daha aydın duyulur. "Molla Nəsrəddin" jurnalının fəaliyyətə başlaması bir çox qələm ustaları üçün söz meydanına atılmağa zəmin yaratdı. Bu şəxslərdən biri də Ə.Haqverdiyev idi. Müəllifin "Xortdanın cəhənnəm məktubları", "Marallarım" kimi silsilə hekayələri, "Mozalan bəyin səyahətnaməsi" adlı publisist əsərləri bu jurnalda dərc olundu. Jurnal Ə.Haqverdiyevin bir hekayənəvis kimi tanınmasında və sevilməsində mühüm rol oynadı.

"Molla Nəsrəddin"in sevilən simalarından biri də inqilabi satiranın banisi "Sabir" təxəllüslü Ələkbər Tahirzadə idi. Sabirin üstünlüyü köhnə forma ilə yeni məzmunu uyğunlaşdırma bacarığı idi. O, XX əsrin siyasi-ictimai hadisələrini özünəməxsus tərzdə, orijinal formada təqdim etmiş hərtərəfli sənətkardır. Sabir satiraları xalqı əsarətdə saxlayanlara, kapital ağalığına, yetimin malına göz dikənlərə ünvanlanmış ən dəqiq hədəfdir. Şair "Bir utan", "Bizə nə", "Qurban bayramı", "Ey pul", "Paradır", "Mətləbi andırmaq olurmu?", "Hər nə verirsən, ver", "Dilənçi" və s. satiralarında onu narahat edən məqamları ustalıqla qələmə almışdır.

1906-cı ildə "Molla Nəsrəddin" jurnalı fəaliyyətə başlayan zaman bu mətbu orqanında fəallığı ilə seçilən, öz dəst-xətti ilə minlərlə insanın rəğbətini qazananlardan biri də Sabir idi. "Ümumiyyətlə, "Molla Nəsrəddin"lə Sabiri ayrı-ayrılıqda təsəvvür etmək çətindir. Onlar eyni sosial-ictimai inkişafın yetişdirdiyi və biri digərini tamamlayan "ekizlər" timsalındadırlar". [ 4, s.45] 1906-cı ilin may ayının 3-ü "Molla Nəsrəddin"in "Poçt qutusu"na daxil olan bir məktubda yazılırdı: "Əfəndim, 28 aprel tarixli dördüncü nömrəni əvvəlki nömrələrdən daha ziyadə bir ləzzətlə mütaliə etdik...". Sözü gedən nömrədə Sabirin "Oxutmuram, əl çəkin" satirası yer almışdı. Mollanəsrəddinçilər jurnalın bu sayının böyük rəğbətlə qarşılanmasının səbəbini də məhz Sabirin qələmindən çıxan bu satira olduğunu anlayırdılar.

Ardınca jurnalda ədibin "Millət necə tarac olur olsun, nə işim var?!" satirası dərc olundu və böyük coşqu ilə qarşılandı. Satirada müəllif tipin dilindən verilmiş monoloqlar vasitəsilə dövrünün xanlarını, bəylərini, istismarçılarını, öz mənafeyi naminə xalqı əzənləri açıq şəkildə tənqid hədəfinə aldı. Şeir olduqca sadə dildə yazılmış, söz, ifadə və tərkiblərin hamısı canlı xalq dilindən alınmışdı. Bu xüsusiyyət Sabiri geniş kütlənin sevimlisinə çevirən ən mühüm səbəblərdən biri idi. Şair xalq ilə qələm əhli arasındakı keçilməz divarı yıxmağa müvəffəq olmuşdu.

Sabir özündən sonra böyük bir ədəbi məktəb qoydu. Ə.Nəzmi, M.S.Ordubadi, Əliqulu Qəmküsar, Əli Razi Şəmçizadə, M.Ə.Möcüz, Ə.Məhzun kimi sənətkarlar Sabir ədəbi məktəbini davam etdirmiş, şairin yaradıcılığından təsirlənərək şeirlər yazmışdılar.

Sabirdən sonra, məhz Əli Nəzmi "Molla Nəsrəddin" jurnalında satiraları ilə onun üslubunu davam etdirmişdir. C.Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalına yaraşan şivənin məzəliliyi, duzluluğu, məlahət və lətafəti ilə Məşədi Sijimqulunu, Kefsizi M.Ə. Sabirə yaxın və əvəz olan birinci şairlərdən hesab etməkdə haqlı idi. [Molla Nəsrəddin, 1906: 6]. Sijimqulu, Kefsiz Əli Nəzminin "Molla Nəsrəddin" jurnalında gizli imzaları idi. C.Məmmədquluzadənin Əli Nəzmi ilə bağlı fikirlərini, demək olar ki, Mir Cəlal da təkrar edir. [9 ,s. 178]

"Molla Nəsrəddin" jurnalında "Quli-biyabani" adlı bir felyeton və onun altında Sabirin "Tömeyi nahar" adlı bir satirası dərc edilmişdir. Sabirin satirasında kasıb kəndli ilə varlı üz-üzə qoyulur: kasıb süfrəsində ac və ümidsiz oturub varlıdan imdad dilədiyi halda, varlı bolluq içində kef edir və yalnız pulunu artırmağın yollarını düşünür. C.Məmmədquluzadə qeyd edir ki, bu əsərin ideyası sonradan Əli Nəzminin "Çayda çapan qardaşım, ağlama, ağları gör" adlı şeirinə təsir göstərmişdir. Şeir xalq danışıq dilinə yaxın ifadələrlə, sarkazm və satirik çalarlarla yazılmışdır. Şairin müraciəti "Çayda çapan qardaşım" ifadəsi ilə başlayır. Əsərdə müəllif öz maddi durumunu, karını düşünən varlıları bir az da xalqı düşünməyə səsləyir: "Fikr elə bir az, qadam, Xəlqi, sora karı gör" [11, s. 32]. Şeirdə sosial eybəcərliklərin, dövrün mənzərəsinin kəskin satirik təsviri verilir. "Cami-səfahət, atam, Kim içirib

sizlərə" misralarında eyş-işrətə, mənasız əyləncələrə aludə olanlar tənqid edilir [11, s.33]. Şair bir tərəfdən xalqın miskinliyini, digər tərəfdən isə nadanlığa sürüklənməsini istehzalı dillə göstərir.

"Mən hələ gördüklərimin dörddə birini yazmayıram, halıma bax" - deyən Sabir üslubunu Əli Nəzmi "Yazım-yazmayım" adlı şeirində davam etdirir. Şeirdə əsas diqqət cəmiyyətin eybəcər tərəflərinə yönəldilmişdir. Şair "yazım, yazmıyım?" sualını təkrar-təkrar verərək həm öz tərəddüdünü, daxili gərginliyini, həm də oxucuya ünvanlanmış çağırışı ifadə edir. Bu sual ritorik xarakter daşıyır, əsərə ritm, istehzalı ovqat qatır. Burada mətbuat və elmə münasibət ("Əqlimi puç etdi kitabət, yazı", "Jurnalı, həm qəzeti daşladım", dini riyakarlıq ("Bir neçə molla qarını aşladım"), gündəlik bazar həyatı ("baqqalı, ya bəzzazı"), hətta adi məişət hadisələri ("Halvanı çaldım, həmi lavaşladım") satiranın hədəfinə çevrilmişdir [11, s.56]. Şair bu misralarla cəmiyyətdəki mənəvi aşınmaları qabardır. "Bax, necə insan qanı su tək axır. Mənzərəsi ruh ilə canı yaxır" misraları şairin satirik əsərinin ən faciəvi məqamını əks etdirir. Şair burada həm dövrün sosial-siyasi gərginliyini, həm də cəmiyyətdə baş verən zorakılıqlar, ədalətsizliyi və qanunsuzluqları kəskin şəkildə ortaya qoyur.

Ə.Nəzmi ictimai-satirik poeziyasını xalqın ağır taleyinin təsvirinə həsr etmişdir. Onun "Sizə nə", "Əkinçilər", "Ey füqəra" kimi şeirləri kəndlilərin güzəranını, onların gündəlik zəhmət içində kasıblıq və hüquqsuzluq girdabında yaşamasını əks etdirir. Şair kəndlilərlə birlikdə ömür sürdüyü üçün onların həyatını yaxından görmüş, dərdlərinə bələd olmuşdu. Bu səbəbdən də onun poetik obrazları real və canlı təsir bağışlayır.

Ə.Nəzminin "Polis idarələri" adlı satirası isə kəndlilərin hüquqlarının pozulmasını, polis idarələrində hökm sürən rüşvətxorluğu və özbaşınalığı ifşa edən kəskin bir əsərdir [11, s. 263-264]. Şair təsvir edir ki, xalq sərbəsər soyulur, talanır, amma nəticədə yalnız polis və məmurların cibləri dolur. Şair "Topal Həsənli quldurları" ifadəsi ilə rəmzləşdirilmiş quldurları polisin timsalında görür [11, s. 263-264]. Bu misralar açıq satira ilə polisin qanun keşikçisi yox, quldurluqla məşğul olan bir dəstəyə çevrildiyini göstərir. Burada şair o fikirdədir ki, qanunu qorumaq və zəifi müdafiə etmək əvəzinə, idarələr xalqı daha çox əzir, hüquqlarını tapdalayırlar.

Sabir məktəbinin digər davamçısı Ə.Qəmküsar da satirik poeziyasında eyni mövqedən çıxış edərək xalqın halını düşünməyən, onu soyub-talayaraq var-dövlət içində yaşayan varlıları hədəfə almışdır. O, bir şeirində varlıya müraciətlə "Bu qədər ifadələnmə, sənə yoxdu bab, varlı, Füqəranı, bəsdir, az soy, elə ictinab varlı" - deyərək onu ədalətli olmağa, kasıbın haqqına girməməyə çağırır. Əslində bu, sadə bir nəsihət yox, varlıların zülmkar davranışlarına qarşı sərt bir tənqiddir [5, s. 87]. Sabirin "Səbr elə" şeirindəki acı və istehza Qəmküsarın "Millətinin halı pərişan ola" mətləli satirasında öz əksini tapır. "Qəm yemə, səbr et, bu da, yahu, keçər!" - deyə ironik şəkildə səslənən şair, əslində səbrin faydasızlığını göstərir, xalqın cahillik,

nadanlıq və vəhşilik içində əzildiyindən şikayətlənir [5, s. 22]. Burada ironiya və sarkazm Sabir məktəbinin poetik gücünün davamı kimi çıxış edir. Əsərdə konkret hədəflər də vardır: Kəlbəli və Kəlb Cəfər obrazları xalqı talayan, ona zülm edən real şəxsiyyətlər kimi təqdim olunur. Şair görünüşdə onlara səbr etməyi tövsiyə etsə də, əslində səbr kasasının daşdığını, xalqın üsyana doğru sürükləndiyini göstərir.

Qəmküsarın "Nə yoğurduq, nə yapdıq, hazırca, kökə tapdıq" felyetonu və "İngiltərə" satirasında Sabirin təsiri ilə yanaşı, dövrün ictimai-siyasi hadisələrinin – xüsusilə də Rusiyada baş verən inqilabın – izləri də görünür. Müəllif bu hadisəni xalqın hüquqlarını tələb etmək üçün bir fürsət kimi təqdim edir. "Nə yoğurduq, nə yapdıq, hazırca, kökə tapdıq" Qafqaz və Türküstan şəhərlərindən hökumətə göndərildiyi güman edilən layihələrin təqdimi şairin satirik üsulla cəmiyyətin geriliyini və ziddiyyətlərini üzə çıxarmaq məqsədinə xidmət edir [5, s. 144-146]. Bu felyetonlarda Gəncə, İrəvan, Naxçıvan, Dərbənd, Quba, Türküstan, Bakı və s. şəhərlərdən gələn, xalq adından edilən qəribə xahiş və tələblər ironiyanın əsas qaynağıdır. Gəncə xanının qumarbazlığa icazə verilməsini istəməsi, İrəvan camaatının isə təhlükəli dövr üçün uşaqlı-böyüklü hər kəsin belinə iki tapança və iki qəmə bağlamasına icazə tələb etməsi həm absurd, həm də real həyatın eybəcər tərəflərini ifşa edir.

Müəllif Naxçıvan camaatının "şpion zavodu" açmaq istəyini göstərməklə, həmin mühitdə mövcud olan donosçuluq, qeybət və qaragüruhçuluq əxlaqını satirik boyalarla göstərir. Türküstandan gələn tələblərdə isə dini adətlərin eybəcər təzahürləri, boşboğazlıq və avamlıq ironik təsvirlərlə üzə çıxarılır: camaat çayxana və küçələrdə xoruldayaraq yatmaq, dəstələr halında nümayişkaranə şəkildə namaz qılmaq istəyir. Bakıdan göndərilən qərar isə ictimai-siyasi mühitin korlanmış vəziyyətini parodiyalaşdırır. Burada "Peterburqa bir vəkil göndərmək" adı altında əslində mətbuat və idarəçilik üzərindən böhtan, iftira, söyüş və alçaltma praktikasının qanuniləşdirilməsi satirik dillə göstərilir. Bu, dövrün qəzetçilik mühitində və yerli idarələrdə mövcud olan söz azadlığı probleminin ironik təzahürüdür. Dərbənd əhalisinin istəklərində isə dini fanatizm və mərasimçilik ənənələrinin şişirdilmiş formada tənqidi aparılır. Əgər əvvəllər yalnız Aşura və Peyğəmbərin vəfat günlərində baş yarmaq adəti mövcud idisə, indi camaat 179 məsumun və peyğəmbərin bütün şəhadət günlərində baş yarmaq niyyətini ortaya qoyur. Bu, bir tərəfdən dini mərasimlərin ifrat hal almasını, digər tərəfdən isə xalqın gerçək problemlərini kənara qoyub fanatik davranışlara üz tutmasını göstərir. Müəllifin satirik üsulu ondan ibarətdir ki, hər bir şəhərin tələbi reallığın ironik təhrifinə əsaslanır. O, xalqın "təzə hökumətdən" istəklərini sadalayaraq əslində bölgələrdə hökm sürən özbaşınalığı, dərəbəylik və qarışıqlığı üzə çıxarır. Bu satirik tablo ictimai idarəçiliyin səriştəsizliyini, xalqın adından qərar verənlərin şəxsi maraqlarını güddüyünü və nəticədə dövlətin birliyini dağıtdığını ifşa edir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 470-479*

Ən diqqətçəkən məqamlardan biri müəllifin İrəvan camaatına aid təsviridir. Onların tələbi "bir tapança və bir qəmə ilə yalnız on nəfər öldürmək mümkündür, daha çox silah lazımdır" məntiqinə əsaslanır. Buradakı ironiyanın sətirləri arasında dövrün siyasi gərginliyi və bölgədəki təhlükəli mühit oxucuya açıq şəkildə çatdırılır. Qəmküsar satirik ampluasında göstərir ki, İrəvanda vəziyyət doğrudan da gərgindir, kütləvi qırğınlar baş verir və bu hadisələr siyasi və sosial qarışıqlığın bir nəticəsidir.

"İngiltərə" satirasında şairin əsas hədəfi ingilislərdir. Burada onların siyasətini hiylə və məkr üzərində qurduğunu, əsrlər boyu Asiyada kök salaraq xalqlara zərər verdiyini göstərir. Əsərin yazıldığı dövr – 1919-cu il – Azərbaycan və Qafqaz üçün mürəkkəb bir tarixi mərhələ idi. Müxtəlif imperialist güclər bölgədə öz maraqlarını güdürdülər. Şair bu kontekstdə vurğulayır ki, bir vaxtlar Rusiya və Almaniya azadlığımıza zərbə vurmuşdu, lakin indi özləri çətin vəziyyətə düşüblər. O, ümid edir ki, İngiltərə də bir gün onlar kimi zəifləyəcək və məhv olacaq. "Hər yeri, hər ölkəni min fənd-fel ilə alıb. Aləmi bərbad edibdir, bircə Gürcüstan qalıb" ironiyası ilə şair xalqı ayıq-sayıq olmağa, ingilislərin hiylələrinə aldanmamağa, onlardan uzaq durmağa çağırır. Beləliklə, əsər həm siyasi tənqid, həm də milli oyanış çağırışı xarakteri daşıyır, xalqı müstəqilliyini qorumağa səsləyir.

Beləliklə, Ə. Qəmküsarın və Ə.Nəzminin satirik yaradıcılığı yalnız gülüş doğuran ironik mətnlər deyil, həm də dövrün ictimai-siyasi salnaməsi kimi çıxış edir. Onun yaradıcılığı Sabir ənənəsinin davamı olmaqla yanaşı, satira vasitəsilə xalqın üzləşdiyi real faciələrin bədii təcəssümünə, sosial tənqidin güclü silahına çevrilir.

"Molla Nəsrəddin" jurnalı çapa başladığı andan tək türk dünyasında deyil, həm də Şərqdə tanınmağa və yayılmağa başladı. Həm jurnal, həmdə mollanəsrəddinçilər türkdilli xalqların ədibləri arsında məşhurlaşdıqca ədəbi əlaqələr daha da güclənirdi. Mollanəsrəddinçilər arasında Mirzə Ələkbər Sabir və Mirzə Cəlilin davamçıları türkdilli xalqların arsında daha çox idi. Özbək ədəbiyyatında Səidəhməd Siddiqi Əczi satiralarını Mirzə Ələkbər Sabirin təsiri ilə mollanəsrəddinçilərin poetik fikir, məna və məzmununa uyğun yazırdı. M.Ə.Sabir 1890-1895-ci illərdə Şərq ölkələrini gəzmiş, bir çox ziyalılarla görüşmüş, onların bir çoxu ilə dostluq etmişdir. Həmin illərdə S.S.Əczi də Sabirlə görüşmüş və onunla həmsöhbət olmuşdur. 1901-1903-cü illərdə isə Əczi Tiflisdə Mirzə Cəlillə tanış olur. Bu tanışlıqlar sonradan sıx əlaqələrə çevrilir. "Molla Nəsrəddin"in çapı isə ədəbi əlaqələri daha da sıx olmasına səbəb olur. Özbək tədqiqatçısı Bəyalı Qasımov S.S.Əczinin yaradıcılığı haqqında tədqiqlərində qeyd edir ki, şairin "Miratül-ibrət" və "Əncüməni-ərvah" əsərləri o illərdə senzura səbəbindən Özbəkistanda çap oluna bilmir. C.Məmmədquluzadə 1912-ci ildə "Qeyrət" mətbəəsində Əczinin əsərlərini çap etdirir.

M.Ə. Sabirin Özbəkistanda daha çox tanınması və sevilməsinə səbəb də "Molla Nəsrəddin" jurnalı olmuşdur. Sağlığında əsərləri daha çox "Molla Nəsrəddin"də çap olunan Sabirin şeirləri o qədər məşhur olur ki, artıq Özbəkistanda

çıxan mətbu orqanlar da Sabirin şeirlərini çap edirlər. M.Ə.Sabirin "Şükür, xudaya" şeiri Özbəkistanda çap olunandan sonra S.S.Əczi də təsirlənərək eyni adda şeir yazır və çap etdirir. M.Ə.Sabir yazır:

Bimərhəmət ə'yanlarına şükr, xudaya!
Bu sahibi-milyanlarına şükr, xudaya!
Millət qəminə baxmayan ənzari-kərəmlə –
İşani-zəvişanlarına şükr, xudaya!
İş bilməyən ancaq yemək-içməkdən əlavə,
Bu canlı dəyirmanlarına şükr, xudaya!
Bidadi-bəradərlə olan qanına qəltan,
Qafqazdakı qurbanlarına şükr, xudaya! [7, s. 384]

S.S.Əczi də eyni ruhda deyir:

Ammamalı şaytonlarınqa şükr, xudaya!
Bu fokidi-imanlarınqa şükr, xudaya!
Səd çəkməyə urfan yoluna amr eləmişlər,
Bu fikirli sultanlarına şükr, xudaya!
Öz keyfinə dünyanın təsəllüt edəcəklər,
Qazilərinə, xanlarına şükr, xudaya!
Çayxanalarda məktəb açıblar ramazanda
Ətfali-qəzəlxanlarına şükr, xudaya!.. [3]

Bir müddət sonra S.S.Əczi "Özbək satirasının Sabiri" kimi tanınır. "Sabirin "Ey pul" Əczinin "Çervon", Sabirin "Əkinçi" Əczinin "Əkin yerlərinin dərdü-həsrəti", Sabirin "Uçitellər" Əczinin "Ziyalılar" şeirlərindəki təsirlər açıq-aydın görünür." [2, s. 47].

Özbək ədibləri içərisində "Molla Nəsrəddin" və Sabir ədəbi məktəbindən bəhrələnən ədiblər sırasında H.Niyazi və M.Sufizadənin də adını çəkmək olar. H.Niyazinin də yazdığı satiralarda Sabir ruhu, Sabir poetikası açıq qeyd olunur.

"Molla Nəsrəddin" jurnalının bütün türkdilli xalqlar arasında müxbirləri vardı. Özbəkistandan olan müxbirin göndərdiyi məqalə və felyetonlarda özbək xalqının həyatı, məişəti təsvir olunurdu. "Molla Nəsrəddin"in təsiri ilə özbək ədibləri satirik əsərlər yazmağa üstünlük verirdilər. Görkəmli özbək yazıçısı Qafur Qulam yazılarında qeyd edirdi ki, mən də yaradıcılığımın ilk illərində "Molla Nəsrəddin"in təsiri ilə satiralar yazırdım. Bu da Molla Nəsrəddinçilərdən daha çox Sabirin təsiri idi. Şair, dramaturq Əsqəd Muxtar da yazır ki, 1910-cu ildə Özbəkistanda baş verən ictimai-siyasi hadisələrə "Molla Nəsrəddin" jurnalı laqeyd qalmır və öz səhifələrində tənqidi yazılar çap edirdi. Biz çoxumuz məhz Mirzə Cəlilin qələmindən ibrət almışıq [2].

"Molla Nəsrəddin"in özbək xalqının həyatına ən böyük təsiri məhz "Muştum" satirik jurnalınının çapı oldu. Böyük ədib Abdulla Qədirinin redaktorluğu ilə çap olunan "Muştum"da şeirləri çap olunan Qafur Qulam, Sabir Abdulla, Xurşud

M.Ə.Sabirin təsiri ilə şeirlər yazan şairlər idilər. Jurnalın səhifələrində Sabirə yazılmış nəzirələr də çap olunurdu ki, bu da "Molla Nəsrəddin" jurnalının özbəklər arasında nə qədər sevildiyini və yayıldığını göstərir. A.Qədiri yazırdı ki, qələmlə güldürməyi "Molla Nəsrəddin"dən öyrənmişəm. "Molla Nəsrəddin" türk-müsəlman dünyasında elə bir oyanış etdi ki, onun əməli nəticələri uzun illər sonra da öz bəhrəsini verdi.

M.Ə.Sabir və "Molla Nəsrəddin" jurnalının təsir etdiyi şairlərdən biri də tatar şairi Qabula Tukaydır. M.Ə.Sabirin satirik kimi yetişməsində "Molla Nəsrəddin"in rolu böyükdür. "Molla Nəsrəddin" Sabiri bütün Şərq ölkələrində və türk dünyasında tanıtdığı kimi, Sabir də jurnalın geniş yayılmasında, oxucular arasında məşhurlaşmasına təkan vermişdir. Akademik Məmməd Arif deyirdi:""Molla Nəsrəddin"i zəmanə özü yaratdığı kimi, Sabiri də zəmanə yaradıb, "Molla Nəsrəddin"ə yoldaş, silahdaş vermişdir" [ 6, s.12].

Qafur Tukayın Mirzə Ələkbər Sabirlə ədəbi tanışlığı "Molla Nəsrəddin" jurnalı vasitəsilə olmuşdur. Tədqiqatçı P.Xəlilovun yazdığına görə, [12, s. 335] Tukay Sabiri yaxşı tanıyır, ondan misallar gətirir və jurnalı təbliğ edirdi.

Tukayın "Millətim" şeirində xalq sevgisi, millətin dərd-səadətini öz taleyi ilə bağlamaq ideyası ön plandadır:

"Səhhətindir səhhətim, həm illətindir illətim…

Satmaram bu kainata millətimi, milliyyətimi" [ 1, s.49] -misraları ilə Sabirin "Millət şərqisi" şeirində eyni ruh hakimdir. Şair burada xalqı oyadan, digər millətlər arasında şan-şöhrət qazanan millətin ucalığını tərənnüm edir:

"Uyquda ikən aləm, əfradını oyatdın,
cümlə miləl içində öz şə'nini ucaltdın. [ 7, s.253]

Beləliklə, hər iki şairin poeziyasında milli oyanış, xalq sevgisi və millətin müqəddəsliyi ideyası ortaq məqam kimi çıxış edir. Onları birləşdirən əsas məqsəd xalqları intibaha çağırmaq və milli kimliyi qorumaq olmuşdur.

## ƏDƏBİYYAT:


1. A.Tukay. Millətim. Bakı, 2011, 268 s.
2. A.Ülvi. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri.Bakı:Qartal, 2008, 326 s
3. Abdullayev V.A. Sabir və Əczi. "Kommunist" qəzeti, 29 may 1962.
4. Bayramoğılu Alxan. Mirzə Ələkbər Sabir. Bakı:Qismət nəşriyyatı, 2003, 320s
5. Qəmküsar, Ə. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb",2006, 168 s.
6. M.Arif. Sabir və Şərq xalqlarının milli azadlıq hərəkatı. "Azərbaycan" jurnalı, 1962, №5, səh 12-18.
7. M.Ə.Sabir. Hophopnamə.İki cilddə, I cildd. Bakı: Şərq-Qərb, 2004, 384 s.
8. Məmmədquluzadə C. C.Məmmədquluzadənin publisistikası. Kaspi, 4 aprel, 2019, səh 15.

9. Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917) Bakı, 2004), 391 s.
10. Molla Nəsrəddin", 1906, №7, səh 6.
11. Nəzmi, Ə. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, 544 s.
12. P.Xəlilov. Türk xalqları və şərqi slavyanların ədəbiyyatı. Bakı, 1994, 432 s.
13. Sabir, M.Ə.Hophopnamə.İki cilddə, I cildd. Bakı, "Şərq-Qərb", 2004, 384 s.

## SUMMARY

## EPRESENTATIVES OF THE LITERARY SCHOOL "MOLLA NASREDDIN" AND THEIR ACTIVITIES

**Assoc. Prof. Mammadova Tora Kamal**
**PhD. Aliyeva Afiqa Ali**
**PhD. Jabbarova Madina Agakerim**

***Keywords****: "Molla Nasreddin", satire, mollanasreddinchis, literary school,criticism*

İn April 1906, in Tbilisi, under the initiative of Ömer Faig Nemanzadeh and with the activity of Jalil Mammadguluzadeh, the magazine Molla Nasreddin was launched. This journal brought together a number of prominent writers of its time. Unlike other press organs of that period, the Molla Nasreddin magazine united those who thought about the future of the people, the so-called "Mollanasreddinchis," on one front in order to struggle against ignorance and backwardness, to promote freedom and equality, and to draw attention to the importance of education and enlightenment. The aim of Molla Nasreddin was to make people think by laughing, and thus to deliver serious ideas in a humorous form. The articles in the magazine were written in a rather simple and understandable language, which allowed ordinary people to read and comprehend them easily. The other press of the time did not pay such great attention to this. For people with weaker reading and writing skills, the illustrations and caricatures published in the magazine had special significance. The caricatures were created by both local artists and foreign painters such as O. Şmerling and J. Rotter.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 470-479*

# РЕЗЮМЕ
# ПРЕДСТАВИТЕЛИ ЛИТЕРАТУРНОЙ ШКОЛЫ «МОЛЛА НАСРЕДДИН» И ИХ ДЕЯТЕЛЬНОСТЬ

**Доц. Маммадова Тора Камал кызы**
**К.ф.н. Алыева Афига Али кызы**
**К.ф.н. Джабарова Мадина Агакерим кызы**

**Ключевые слова: «Молла Насреддин», сатира, молланасреддинцы, литературная школа, kритика**

В апреле 1906 года в Тифлисе по инициативе Омара Фаика Неманзаде и при деятельном участии Джалила Мамедгулузаде начал выходить журнал «Молла Насреддин». Этот журнал объединил вокруг себя ряд выдающихся писателей того времени. В отличие от других печатных органов того периода, «Молла Насреддин» сплотил вокруг себя так называемых «молланасреддинцев», которые думали о будущем народа, и поставил своей целью вести борьбу против невежества и отсталости, пропагандировать идеи свободы и равенства, призывать к образованию и просвещению. Задачей «Моллы Насреддина» было заставить людей задуматься, смеясь, то есть доносить серьёзные идеи в сатирической форме. Статьи в журнале писались достаточно простым и понятным языком, благодаря чему их могли читать и понимать самые обычные люди. Другие издания того времени не уделяли этому такого внимания. Для людей со слабыми навыками чтения и письма особое значение имели иллюстрации и карикатуры, которыми изобиловал журнал. Карикатуры создавались как местными художниками, так и иностранными мастерами, такими как О. Шмерлинг и Й. Роттер.

**Rəyçi: filologiya elmləri doktoru Arzu Hüseynova**